*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2024*
*Səh. 244-249*
https://doi.org/10.62837/2024.2.244

**MƏMMƏDOVA ÜLVİYYƏ RÜFƏT**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**mammadova.uu@gmail.com**

# İKİLİ TƏHSİL MODELİNİN MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

**Xülasə**

Məqalə aparılan əhatəli araşdırmalar nəticəsində əldə olunan məlumatlara əsasən, uğurlu Alman modeli hesab olunan ikili təhsil sisteminin mənfi və müsbət tərəflərinin müqayisəli təhlili ilə bağlıdır. Araşdırmalar zamanı ikili model üzrə həm öz doğma vətənində, həm də dünyada aparılmış tədqiqatlar, müşahidələr, təcrübələr və təhlillərə əsaslanan mənbələr və məlumatlardan istifadə edilmişdir. Məqalədə, hərtərəfli qazanc modeli hesab olunan bu təhsil sisteminin nə üçün bu cür adlandırıldığı müəyyən edilərək bütün üstünlükləri ətraflı şəkildə müzakirə edilmişdir. Lakin, anlaşılandır ki, hətta ən çox uğur qazanmış bir modelin belə müəyyən çatışmazlıqları mövcuddur. Bu məqalədə həm də ikili təhsil təlim modelinin çatışmazlıqları, bəzi dezavantajları barədə də məlumatlar verilmişdir. Müəyyən edilmiş bütün üstünlüklər və çatışmazlıqların qarşılıqlı müqayisəli təhlili bir cədvəl formasında göstərilmişdir.

***Açar sözlər***: ikili təhsil modeli, üstünlüklər, çatışmazlıqlar, tələbə, təhsil müəssisəsi, iş yeri, şirkət, müsbət və mənfi tərəflər

## ПОЛОЖИТЕЛЬНЫЕ И ОТРИЦАТЕЛЬНЫЕ СТОРОНЫ МОДЕЛИ ДУАЛЬНОГО ОБРАЗОВАНИЯ

**Резюме**

Согласно данным, полученным в результате комплексных исследований, статья связана со сравнительным анализом отрицательных и положительных сторон дуальной системы образования, считающейся успешной немецкой моделью. В ходе исследований использовались источники и данные, основанные на исследованиях, наблюдениях, опыте и анализах, проведенных по дуальной модели, как в родной стране, так и в мире. В статье определяется, почему данная система образования, считающаяся моделью комплексной прибыли, имеет подобное название, и подробно рассматриваются все ее преимущества. Однако вполне очевидно, что даже самая удачная модель имеет определенные недостатки. В данной статье также предоставлена информация о недостатках и некоторых минусах модели дуального образования. Двусторонний сравнительный анализ всех выявленных преимуществ и недостатков представлен в виде таблицы.

***Ключевые слова***: модель дуального образования, преимущества, недостатки, студент, учебное заведение, рабочее место, компания, плюсы и минусы

# PROS AND CONS OF DUAL EDUCATION MODEL

**Summary**

The article is related to the comparative analysis of the negative and positive sides of the dual education system, which is considered a successful German model, based on the data obtained as a result of comprehensive research. During the research, sources and data based on studies, observations, experiences and analyzes on the dual model conducted both in his native country and in the world were used. In the article, all the advantages of this education system, which is considered a win-win model, are determined and discussed in detail. However, it is clear that even the most successful model has certain drawbacks. This article also provides information about the shortcomings and some disadvantages of the dual education training model. A mutual comparative analysis of all identified advantages and disadvantages is shown in the form of a table.

***Key words***: dual education model, advantages, disadvantages, student, educational institution, workplace, company, pros and cons

Alman ikili təlim modelinin 3 əsas məqsədə xidmət etdiyi bildirilir ki, bunlara da fərdin, cəmiyyətin və biznes sektorunun maraqları aiddir. Peşə təliminin fərdi mənada əsas məqsədi gələcək iş və işdənkənar həyatında insanın qarşılaşa biləcəyi problemlər qarşısında lazımi bacarıq və vərdişlərə yiyələnməsini bildirir. Aldıqları təhsil və təcrübə gənc mütəxəsislərə həyatlarını qurmağa, öz potensiallarını üzə çıxarmağa, həmçinin özlərinə inam və motivasiya yaratmağa yardım etməlidir. İctimai mənada isə məqsəd gənclərin iş yerində və sosial həyatda rahat inteqrasiyasını təmin etməkdən ibarətdir. İqtisadi anlamda isə məqsəd ondan ibarətdir ki, peşə təlimi iqtisadi baxımdan iş məhsuladrılığını artırmalıdır. Yəni, insan resurslarının artırılması və onların zəruri bilik, bacarıq və vərdişlərlə təmin edilməsi, həmçinin yüksək səviyyədə ixtisaslaşdırılması nəzərdə tutulur. Biznes müsəssisəsinin əsas məqsədi müvafiq səriştəyə sahib ixtisaslı kadrlarla təmin olunmaqdır. İqtisadi baxımdan başqa bir vacib məsələ də məhz peşə təliminin özünün effektiv və səmərəli olmasıdır.

Alman ikili təlimi uğurlu bir sistem hesab edilir, lakin bu o demək deyil ki, bu sistem bütün ölkələrdə uğur qazanacaqdır. Xüsusilə fərqli əmək bazarı strukturuna sahib olan, eləcə də çox az və ya heç şagirdlik təcrübəsi olmayan ölkələrdə bu modelin tətbiqi əlverişli olmaya bilər. Araşdırmalar göstərir ki, hətta düzgün şəkildə qurulmuş sistemlər belə zaman-zaman müəyyən çətinliklərlə üzləşir və onların da təkmilləşdirilməli tərəfləri vardır. Lakin, istənilən halda, ikili təlim-təhsil modeli üzrə nümunə ölkələrə nəzər salaraq və onların tətbiq etdiyi elementləri və prinsipləri təhsil sistemində islahalarata ehtiyac olan istənilən ölkənin şəraitlərinə və məqsədlərinə uyğunlaşdırmaq olar. Bu təqdirdə, bir ölkənin təcrübəsi başqa ölkələrdə "təqib edilə biləcək nümunə"yə çevrilir [3]. İkili peşə təlimi və təhsili modelinin uğurunda rol oynayan əsas məqamlar onun gətirdiyi bəzi avantajlar, yəni üstünlüklərdir.

Praktiki fəaliyyət peşəyə yiyələnməyin ən effektiv üsuludur və ikili təlim-təhsil prosesində hər semestr üzrə praktiki təcrübələrə müəyyən vaxt çərçivəsi ayrılır. Şirkətə qəbul edilən tələbə əyani olaraq işlərin gedişatını öyrənir, müxtəlif layihələrin həyata keçirilməsində iştirak edir, öz bilik və bacarıqlarını təkmilləşdirlər. Həyata keçirilən müxtəlif layihələr tələbələrin həm peşəkar, həm də fərdi və sosial bacarıqlarını genişləndirərək onlarda özlərinə qarşı inam yaradır. Eyni zamanda bu cür layihələr üzərində işləmək tələbələrin müstəqil və komanda daxilində səmərəli şəkildə fəaliyyət göstərməyə və məsuliyyət götürməyə sövq edir. İlk gündən şirkətə işçisi qismində qəbul olunan tələbə özünün artan qabiliyyətləri və bacarıqlarına uyğun tapşırıqlar alır və ikili təlim-təhsil prosesinin şagirdlik (şirkətdə təcrübə) müddətini tamamladıqdan sonra, yekun imtahandan keçib uğur sertfikikatı əldə etdikdən sonra şirkət onunla daimi əmək müqaviləsi bağlaya bilər. Məzun olmuş gən mütəxəssis artıq həmin şirkətin iş prosesini bildiyi, şagird iş yerindəki atmosferə, kollektivə və işlərin gedişatına öyrəşmiş olduğu üçün bu hal hər iki tərəf üçün qazanca çevrilir. Bununla yanaşı, Şagirdlər real iş şəraitində formalaşdıqları üçün onlar həmin işin öhdəsindən gəlməyə qadir olub-olmadıqlarını kifayət qədər erkən vaxtlardan anlaya bilirlər. Tələbələr üçün bir digər qazanc isə işin maaddi tərəfidir. Belə ki, bilik və təcrübə qazanmaqla bərabər, təlim-təcrübə keçdikləri şirkətin işçisi hesab olundaqlı üçün minimal əmək haqqı alırlar.

Bu da nəzərə alınmalıdır ki, tələbələr ikili peşə təlimi və təhsili əsasında yüksək keyfiyyətli peşə hazırlığı keçir və dərin biliklərə yiyələnir, gənc yaşlardan etibarən əmək bazarına rəqabətədavamlı bir mütəxəssis kimi daxil olmağa hazır olurlar. Bu da onların təlimlərində iştirak edən firmaların, digər özəl sektorların onları məzun olduqdan sonra işə götürmələrinə güclü zəmin yaradır. Yüksək səviyyəli peşə hazırlığı keçmiş bir işçi qüvvəsi bilavasitə istehsalat və xidmətin keyfiyyətinə müsbət təsir etdiyindən bu, həm də firmaların iqtisadi cəhətdən uğur qazanmalarına təkan verir. Bütün bunlar onu göstərir ki, Avropa ölkələri arasında Almaniya və Avstriyada gənclərin işsizlik səviyyəsinin aşağı olması heç də təsadüfi bir hal deyil.

İkili təhsil modeli ümumilikdə nümunəvi bir sistem hesab edilsə də, bəzi çatışmazlıqları, bir başqa sözlə ifadə etsək müəyyən mənfi cəhətləri də vardır. Məsələn, şagirdlik təcrübəsini təmin edən şirkətlər bir çox qayda-qanunlara əməl etməli və çox bahalı bir təlim prosesini qarşılamalı olurlar. Bu və ya digər səbəblərdən özəl sektorlar ya ümumiyyətlə şagird götürmək istəmir, ya da çox məhdud sayda qəbul edirlər. Bəzən isə, olduqca yüksək standartlara və yüksək ixtisaslaşma qabiliyyətinə sahib şirkətlər bütün sahələr üzrə şagirdlik vakansiyası vermirlər. Bundan başqa, tələbləri bir qədər mürəkkəb olan bəzi ixtisaslar var ki, adekvat bilik səviyyəsində olmadıqları üçün əksər orta məktəb məzunları daha sadə tələbləri olan peşələr üzrə təlim almağa üstünlük verirlər. Hətta bəzi hallarda çətinliklərə davam gətirə bilməyən şagirdlər kursu yarım buraxırlar. Bu gün əksər şagirdlər qəbul olunmazdan əvvəl qabiliyyət imtahanları verməlidirlər və şirkət adətən bir neçə namizəd arasından seçim edə bilər. Bütün bunlar göstərir ki, ikili peşə təhsili sisteminin ən zəif aspekti onun özəl sektordan asılılığıdır. Çünki, hər bir

biznes sahibi şirkətdaxili təlim öhdəliyi götürmək məcburiyyəti daşımır. Öz strukturu, şəraiti, ixtisaslaşma səviyyəsi, istehsalat proqramları, göstərdikləri xidmətlər və insan resurları bazasına görə təlim keçmək imkanlarına sahib olmayan bir sıra şirkətlər vardır.Təbii ki, bu və ya digər iqtisadi-struktural səbəblərdən yetərli sayda təlim vakansiyalarının olmaması təlim bazarında balansın pozulmasına yol açır və xüsusilə daha zəif akademik bilik və təcrübəyə sahib olan gənclərin ixtisaslı peşə təhsili almaq fürsətini məhdudlaşdırır.

Aşağıdakı kimi bir cədvəllə ikili təhsil modelinin üstünlükləri və çatışmazlıqlarını daha ətraflı şəkildə qarşılıqlı müqayisə edə bilərik June 9, 2023: [1; 4]

| **Müsbət tərəflər / üstünlüklər** | **Mənfi tərəflər / çatışmazlıqlar** |
|---|---|
| • Nəzəriyyə və təcrübənin inteqrasiyası ilə tələbələr akademik nəzəri biliklə yanaşı iş təcrübəsinə də yiyələnirlər. | • İkili proqramlar adətən standart bir strukturda olduqlarından gənclərin maraq dairlərinə uyğun kurs seçmək imkanları məhdudlaşır. |
| • Hər hansı bir şirkət daxilində real iş mühitində təcrübə toplamaq gənclərə sahibkarların çox tələb etdiyi mühüm bacarıq və səriştələr qazanmaq imkanı verir. | • Akademik dərs yükü ilə peşə məsuliyyətini tarazlaşdırmaq bəzən tələbələr üçün çətin ola bilir. Eyni vaxt çərçivəsində çoxsaylı öhdəlik və vəzifələri yerinə yetirmək zamandan düzgün istifadə və təşkilati bacarıqlar tələb edir. Təlbələr, xüsusilə imtahan ərəfələrində gərgin iş yükünə məruz qalırlar. |
| • İkili təlim-təhsil alan tələbələr məzun olduqda həm akademik dərəcə və diplom, həm də peşə təlimi üzrə uğur sertifikatı əldə edirlər. | • Almaniyada ikili təhsil almaq istəyən beynəlxalq tələbələr, alman dilini yaxşı bilməlidirlər. Orada ingilis dilli kurslar təklif edən proqramlar çox az saydadır. Digər ölkələrin isə özlərinə müvafiq dil tələbləri var. |
| • ikili model əsasında təhsil alan tələbələr praktiki təlim keçdikləri şirkətdən maliyyə mükafatı alırlar ki, bu da tələbələrin maddi yükünü yüngülləşdirməyə və yaşayış xərclərini, yaxud da təhsil haqlarını qarşılamağa kömək edir. | • Almaniyada beynəlxalq tələbələr üçün ikili peşə təlimi və təhsili proqramlarının sayı məhdud ola bilər. Bəzi proqramların xüsusi uyğunluq meyarları vardır ki, yalnız bu tələblərə cavab verən şagirdləri qəbul edirlər. |
| • İkili model təhsil müəssisələri ilə şirkətlər arasında əlaqələri | • İkili təlim-təhsil proqramlarının qabacdan müəyyən edilmiş vahid |

| | |
|---|---|
| gücləndirir və bu məzun olan mütəxəsislərin şəbəkələşmə və potensial iş təklifləri əldə etmə imkanını artırır. | strukturu bəzi gənclərin akademik məqsədləri və kariyera planlarına uyğun gəlməyə bilər. |
| • Tələbələr öz ixtisaslarına dair təlim materiallarını, iş avadanlıqlarını əyani olaraq görür və istifadə edir, iş prosesində şəxsən iştirak edir, təcrübəli kolleqalarını və işin gedişatını canlı olaraq müşahidə edirlər. | • Ayrı-ayrı şirkətlərdə təlim alan tələbələr təhsili müəssisələrində akademik dərsləri eyni qrupda dinləyə bilərlər. Öyrədilən nəzəri biliklər bəzi peşələrdə olduqca əhəmiyyətli, bəzilərində az əhəmiyyətli, bəzilərində isə praktiki səriştə ilə eyni dərəcədə əhəmiyyətli olur. |

Bütün bu sadalananları ümumiləşdirdikdə görürük ki, ikili peşə təliminin əsas xüsusiyyəti xüsusi bir sahə üzrə mütəxəssis yetişdirilməsi prosesində təlim-tədris və istehsalat sahələrinin bir-birilə qarşılıqlı əlaqədə olmasıdır. Bu iki fərqli, lakin tərəfdaş sektorlar qüvvələrini birləşdirərək vahid bir təlim məqsədinə xidmət edirlər. İş yerində "şagirdlik" təcrübəsi keçən tələbə "nə etməli?" və "necə etməli?" suallarına, təhsil müəssisəsində isə "niyə?" və "nə məqsədlə?" suallarına cavab axtarırlar. Əsl ustalıq məharətinə yiyələnmək üçün mürəkkəb nəzəri biliklə praktiki peşə fəaliyyətinin bu cür inteqrasiyası olduqca əhəmiyyətlidir.

Abay Qazaxıstan milli pedaqoji universitetindən pedaqoji elmlər üzrə doktor Uljarkin Abdiqapbarova və Qazaxstan M.X. Dulati adına Taraz regional universitetindən Alua Smanova Almaniya və Qazaxstanda ikili təhsil modeli haqqında monoqraflarında szügedən modelin əsas üstünlüklərini belə sıralamışdırlar: [5]

- Nəzəriyyə və praktika arasında körpü vəzifəsini görür;
- İqtisadi inflyasiya riskini aşağı salır;
- İşsizlik səviyyəsini minimuma endirir;
- Geniş qarşılıqlı əlaqələr qurulmasını təmin edir;
- Təliminin təşkili üçün zəruri xərclərin mühüm bir qismini tərəfdaş şirkət qarşılayır;
- Təlim müddətində şirkət tələbləri qarşılayan bir mütəxəssis hazırlayır;
- İctimai əməkdaşlığı inkişaf etdirir;
- Gələcək mütəxəsislərdə yenilikci düşüncə tərzini formalaşdırır;
- Məzunların cəmiyyətə uyğunlaşmasını təmin edir;
- Təlimlərdə sahibkarların özlərinə işçi hazırlamaq kimi maraqları olur;
- Gələcək mütəxəssislərin hazırlığında"müştəri tələbləri" də nəzərə alınır;
- Proqramın tələbənin maraq və ehtiyacları əsasında seçilir və davam etdirilir.

Sankt Qallen universitetinin professoru Dr. Dieter Euler Almaniyanın ikili peşə təhsili sistemi üzrə tədqiqatında dual modelin üstünlüklərini aşağıda göstərildiyi kimi sadalamışdır: [2]

• Təlim əmək bazarının tələbatlarını qarşılamağa yönəlmişdir;

• Peşə bacarıqları şəxsin özünün seçdiyi sahə üzrə işləməsinə imkan yaradır;

• Əldə edilən bacarıqlar çox geniş miqyasda tətbiq oluna bildiyindən, şəxsin müxtəlif sahibkarlar tərəfindən işə alınmasına imkan verir;

• Təlimalanın yiyələndiyi bacarıq və vərdişlər onu daha çevik edir;

• Bəzən bacarıq və vərdişlər müxtəlif mərhələlər və ya fasilələr olmadan, stabil bir prosedurla öyrədilir;

• Bacarıqların təkmilləşdirilməsi fərdin şəxsi və kariyera baxımından irəliləməsinə təkan verir;

• Səlahiyyətli orqan (adətən, ticarət və ya sənətkarlar palatası) təlimalanların öyrəndikləri bilik və bacarıqları qiymətləndirmək üçün mərkəzləşdirilmiş bir imtahan sessiyası həyata keçirirlər. Qiymətləndirmə prosesinin şəffaf və ədalətli olması üçün təlim keçən müəllimlərdən heç biri imtahan götürmə prosesində iştirak edə bilməz;

• Öyrənilmiş bilik bacarıq və vərdişlər çeviklikvə fəallıq kimi keyfiyyətləri artıraraq fərdin cəmiyyətdən kənarlaşması riskini azaldır.

İkili peşə təlimi və təhsilinin tətbiqi şəxsi, sosial və iqtisadi məqsədlərə nail olmaq üçün güclü potensiala malikdir; Buna baxmayaraq, bu ikili təlim modeli hələ də əksər ölkələrdə istifadə edilmir. Belə güclü bir peşə təhsili sistemi gələcəyin mütəxəssislərinə iş mühitində bacarıqla fəaliyyət göstərmək, ictimai və sosial həyatda fəal olmaq, o cümlədən şəxsi özünüinkişafı təmin etmək üçün lazımi imkanları verir. İkili təlim-təhsil modelində olduğu kimi nəzəri biliklərlə praktiki bacarıqların təşkilati və didaktik baxımdan belə əlverişli formada birləşməsi bütün sadalanan bu məqsədlərə nail olmağın ən effektiv yoludur.

**Ədəbiyyat siyahısı:**

1. Almaniyada aparılmış "Professional Development" adlı tədqiqat, 9 iyun, 2023
2. Dr. Dieter Eulerin "Germany's dual vocational training system: a model for other countries?" adlı tədqiqatı
3. İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi SDC, 2016
4. "International Encyclopedia of Education" jurnalının 2010-cu il buraxılışı, cild. 8, səh. 448 - 454
5. Uljarkin Abdiqapbarova və Alua Smanova "Dual vocational education in Germany and Kazakhstan" səh.64

**Redaksiyaya daxil olma tarixi: 15.02.2024**
**Çapa qəbul olunma tarixi: 24.02.2024**
**Rəyçi: F.ü.f.d. Mirvari Qasımova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**